

**“Sevdiyim əsər” layihəsində yazarların, elm, sənət adamlarının ən çox sevdikləri əsər haqqında söhbət açırıq. Budəfəki həmsöhbətimiz filologiya elmləri doktoru, professor Nizaməddin Şəmsizadədir. Onun sevdiyi əsər Elçinin “Baş” romanıdır.**

# Həqiqət yalnız bizim xəyallarımızdadır

## Nizaməddin Şəmsizadə: *“Həmin dövrün hadisələri zənci saçları kimi dolaşıqdır”*

**- Hansı məziyyətlərinə və bədii keyfiyyətlərinə görə Elçinin “Baş” romanı sizin sevdiyiniz əsərdir?**

- Belə fikirləşirəm ki, 60-70-ci illər ədəbi prosesi 21-ci əsrə keçəndə bir qədər duruldu. Yəni bədii ədəbiyyatdan çör-çöp təmizləndi. C.Cabbarlı, Məhəmməd Füzuli haqqında deyirdi ki, o, ədəbiyyatımızı xəşəmdən təmizlədi. Bir növ yazıçılar daha çox sərbəstlik əldə etdilər. 60-cı illərdə Stalinin şəxsiyyətə pərəstişindən sonra Xuruşov mülayimləşməsi başladı. Qorbaçovun hakimiyyətə gəlməsi ilə də bir balaca nəfəs verildi. Xuruşov mülayimləşməsi dövründə Anarın qəhrəmanı Nemətin qəzet köşkünə “Pravda var?” sualını ünvanlaması və onun “Pravda harda var?” cavabı ilə cavablandırılması bəzi mətləbləri üstüörtülü deyirdisə, artıq sonrakı dövrlərdə baş verən meydan hərəkatında həmin ədəbiyyatın qəhrəmanları milli azadlıq tələb etdilər. Bu mənada Elçinin “Baş” romanı özünün yaradıcılıq təkamülünün gözəl nəticəsidir. Onun “Baladadaşın ilk məhəbbəti”, “Ox kimi bıçaq” və s. povestləri və digər bütün romanları bu səviyyədə deyil. Bu əsər tarixi hadisələr fonunda yazılmış psixoloji romandır. Elçin bu günlə bağlı müəyyən faktları və fikirlərini gizlətmək üçün 19-cu əsr Rusiya hakimiyyətindən bəzi tarixi faktları qələmə alıb Bu əsərin ikinci məziyyəti odur ki, onun poetikası yenidir. Bu, təkcə Sisianovun başına gələn tarixi olaylarla bağlı yaddaş romanı, yaxud roman içində roman deyil, üslubun təkamülü formasında yazılmış bir əsərdir. Elçin, əsas nəticələri oxucunun özünə buraxır. Məsələn, romanın qəhrəmanı “O kimdir?” yaxud “O nədir?” Roman şüur axını əsasında yazılıb. Mən bu romanı “roman-esse” adlandırardım. Çünki ipəkqurdu yarpağı yeyib özünə yuva qurduğu kimi, sanki Elçin də tarixi həzm edərək orada bir yuva qurur. Təəssüf ki, bu yuva da boşdur. Yuva ona görə boşdur ki, oxucu bunu özü fəhm etməlidir. Bu roman tarixi bilgi ilə fəhm əsasında yazılıb. Ümumiyyətlə, bu əsər fəhm olunma vasitəsilə anlaşılan romandır.

**- Sizcə, öz romanı “Baş” adlandıran yazıçı insanlığın başsızlığına işarə edirmi, yoxsa burada başqa məna var?**

- “Baş” başsızlıq haqqında romandır. Harda başsızlıq var, orda milli fəlakətlər var. H.Cavidin dediyi kimi “İdraki sönük başçıların ğəfləti ancaq, Etmiş, edəcək bizləri həp əldə oyuncaq”. Bu, idraki sönük başlar haqqında romandır. Burada söhbət bircə generalın başından getmir. O, rus imperiyasının simvoludur. Əsərdə bir hissə haqqında fikir bildirmək istərdim. Bakı xanı Hüseynqulu xanın bacısı oğlu Mahmud Ağa çox cəsarətli türk kimi təqdim edilir. O, qorxunc imperiya generalını bir dəqiqəyə güllənin ağzına verir. Sisianov öldükdən sonra Bakının axundu molla Müzəffər Ağanın göstərişi ilə meyitin başını kəsirlər. Fikrimcə, bu, bir din xadiminə yaraşmayan hərəkətdir. Bu, romana müəyyən qüsur gətirir. İkinci iradım isə Sisianovun Knyaz Volkakominski ilə məktublaşmasının göstərilməsidir. O dövr rus imperiyasının hakimiyyət dairələrində gedən prosesləri əks etdirmək üçün bu üsul uğurlu olsa da, psixoloji roman kimi “Baş”ı tempdən salır. Bu romanın gözəlliyi, birnəfəsə oxunması və oxucunu gərginlikdə saxlamağıdır. Roman haqqında danışmaq üçün, əslində onu iki dəfə oxumaq lazımdır. Mən bu əsəri əlyazmasından oxumuşam. Elçin fikrimi bilmək istəyirdi. Ona görüşdüyümüzdə, bu əsərdə bəzi mətləbləri açmağı ehtiyat etdiyini söylədim. Gülüb “yox” desə də, bu romanın digər hadisələr fonunda “O”nun romanı olduğunu düşündüyümü dedim. “O” kimdir? “O” orijinal bir obrazdır. “O” şəffaf və çəkisiz varlıqdır. “Sərhədsiz və məkansız görünən məkanda” ifadələri bu obrazın mistik olma ab-havasını yaratsa da, əslində, belə deyil. Bu, müasir bir yazıçının dövrün həqiqətlərindən qaçmaq üçün yaratdığı bir obrazdır. Bu, Elçinin təfəkkürünün məhsuludur. Mən deyərdim ki, hətta “O” Elçinin özüdür. Çünki bütün hadisələrə “O” nəzarət edir. Gənc Sisianovun Yemilyan Pilaçovun asılmasında iştirak etməsi, gürcü çariçası Marinanın general Lazarevi öldürməsi, yaxud rus çar saraylarında I Pyotrun, II Yekaterinanın, Pavelin saraylarında baş verən hadisələrə “O” qiymət verir. Həmçinin Sarı çoban qızının at müqabilində satılması, Abbas Mirzənin ondan istifadə etməsi əsl faciədir.

Əsərdə təsvir olunan Fətəli şahın sarayı, Abbas Mirzənin əyyaşlığı və bizə münasibəti çox böyük maraq doğurur. Başı kəsib torbaya saldıqdan sonra nümayəndə heyətilə Abbas Mirzəyə Fətəli şaha çatdırılması üçün göndərilir. Bu, həmin Abbas Mirzədir ki, Gülüstan müqaviləsini rus generalı ilə birlikdə imzalamışdı. Bu, tarixi şəxsiyyət olan şahzadə Abbas Mirzədir. Qəribədir ki, o, heç molla Müzəffər Ağanı və igid Mahmudu qəbul etmir. O, molla Müzəffər Ağanın gedib öz mollalığını etməsini istəyir. Mahmudu isə ümumiyyətlə, hüzurundan çıxarır. Mahmud, əslində, Fətəli şahla görüşmək istəyir ki, türkləri birləşdirmək ideyasını ona versin. Fətəli şah türk olmasına baxmayaraq, İran şahı heç türkləri birləşdirərdimi? Belə olacağı təqdirdə, Azərbaycanı işğal etmiş bir imperiyanın generalının başını digər işğalçıya göndərməyin mənası nədir? Həmin dövrün hadisələri zənci saçları kimi dolaşıqdır və həmin dolaşıqlıq da romanda aydın görünür.




**- “Baş” Elçinin dördüncü romanıdır, sizcə, əvvəlki romanlarla bu roman arasında hansı daxili ideya bağları var. “Baş” onları başa vururmu?**

- Elçinin iki romanı - “Mahmud və Məryəm” və “Ağ dəvə” haqqında yazmışam. Onun “Ölüm hökmü” romanı xoşuma gəlmədi. Çünki orada Mir Cəfər Bağırova qarşı düzgün tarixi münasibət yoxdur. Yazıçı, əslində, həqiqəti açmalıdır. Siyasətin arxasınca getməməlidir. “Mahmud və Məryəm”də Səfəvilər imperiyasının tənəzzülündən sonrakı Azərbaycan xalqının faciəsi verilib. “Ağ dəvə”də bizim 30-cu illərdəki faciəmiz verilir. “Baş” romanında olan ideya bağlılığı isə xalqın taleyinin necə olacağı düşüncəsidir. Şəffaf və çəkisiz olan varlıq sərhədsiz və zamansız görünən məkanda taleyi axtarırdı. Hansı məkanda? sualının cavabını isə oxucu özü tapmalıdır. Elçində həmçinin Azərbaycan ədəbiyyatından gələn bir ənənə var. M.F.Axundovda “nuxulular”, C.Məmmədquluzadədə “dəlilər” toplum obrazı Elçində də camaat obrazı kimi təzahür edir.

**- Elçinin 90-cı illərdə yazdığı bir çox əsərlər “ağıldan bəla” problemi ilə bağlı idi. Məsələn, “Diaqnoz d”, “Dəlixanadan dəli qaçıb”, “Mənim ərim dəlidir”. Sizcə, yazıçının ağıl, şüur, idrak probleminə 30 ildən artıq ardıcıl müraciətləri nədən doğur?**

- Elçin məqsədlərini aydın vermir. Bunun əsas səbəbi odur ki, Elçin çıxılmaz vəziyyətdən çıxış yolu axtarır. O, fikirlərini dəlilərin dili ilə çatdırmağa çalışır. Yaşar Qarayev yazır ki, Mirzə Cəlil heç də Məmmədhəsən əminin itmiş eşşəyini axtarmır. Məmmədhəsən əminin varlığında itmiş vətəndaşı axtarır. Elçində də bu tezis çox güclüdür. Yaşar Qarayevin digər bir fikri isə ədəbiyyatın, ağrı yaddaşının faciəsi olmasıdır. Elçinin dramlarındakı ağrı yaddaşıdır. Yaddaşla məşğul olmaq, bir növ də bu mövzudan çıxa bilməmək əlamətidir. Özünü təkrar və mövzusuzluq əlamətidir. Onun “Teleskop” pyesinə maraqla baxsam da, yeni olmadığını qeyd etməliyəm. Məsələn, ya yuxuda, ya da xəyalda o dünyaya gedib bu dünyaya qayıtmaq istəmək ideyası çoxdur. Burada Arif Abdullazadənin bir beytini xatırlatmaq istərdim. “Tövbə, ömür adlı kəlməyə tövbə, Bir də bu dünyaya gəlməyə tövbə”. Bu dünya bəziləri üçün maraqlıdır. Bizim həyatımıza baxanda Qoqulun “Ölü canlar” əsəri yadıma düşür. Mən də “Yeriyən tabutlar” adlı hekayə də yazmışam. Elə bil müxtəlif rəngli tabutlardır, hamısı yeriyir. Müasir insanın üzündə fərəh hissi yoxdur.

Biz bəzi məsələlərdə dünya ədəbiyyatının arxasınca gedirik. Xüsusilə qlobal məsələləri həll etmək məsələsində bu aydın görünür. Ədəbiyyat hələ Qarabağ tarixini açmayıb. Əsərlər, tarixi faktlar açılmamış yazılmalıdır. Burda fantastikadan danışılmır. Ədəbiyyat uzaqgörən olmalı, ən azı 50-100 il qabağı görməlidir. Yazıçı fəhmi, bəsirət gözü bunun üçündür. Elçinin romanında bu, bir qədər var. Fəhmlə yazılan bu roman fəhmli oxucu üçündür. Bu roman haqqında bəlkə də, 20-dən artıq məqalə yazılıb. Amma o romanı hələ də heç kim tam şəkildə aydınlaşdırmır. Çünki oxucu bu romanla nə edəcəyini bilmir. Bu roman 200 il öncəki həqiqətlər deyil. 200 il öncəki həqiqətləri ədəbiyyat yox, tarix deməlidir. Ədəbiyyat 200 il sonrakı həqiqətləri deməlidir. Elçin bu iki fikir arasında qalıb.

**- Sizcə, “Baş” romanı hansı yaradıcılıq metodu ilə qələmə alınıb?**

- Bu romanda postmodernizmin bəzi prinsipləri var. Psixologizm isə daha çox üstünlük təşkil edir. “Baş” sırf tarixi fonda yazılmış psixoloji bir romandır. Zahirən realist metodla yazılsa da, əslində, dünya ədəbiyyatında dəbdə olan şüur axını ilə qələmə alınıb.

**- Yazıçı “Şekspir” və “Teleskop” pyeslərində “mütləq həqiqətin ölçüsü varmı” problemini qoyur və buna “yox” cavabını verir. Bildirir ki, həqiqət nisbidir. Hər kəsin öz həqiqəti varmı? Sizcə, “Baş”da da yazıçı bu həqiqəti müdafiə edirmi?**

- Həqiqət yoxdur. Sufilər min ildir ki, həqiqəti ancaq Allahda görür. Ona görə də, sufizmdə 4 mərhələ var: Şəriət, təriqət, mərifət, həqiqət. Həqiqət artıq Allaha çatmaqdır. Yer üzündə həqiqət yoxdur. Nitşe deyir ki, nə etməli, hakimiyyət həmişə əyri ayaqlar üzərində bərqərar olur. Napoleon Fransanı imperiya elan etmək üçün konstitusiya yazdırmaq istəyir. Fransanın hər yerindən ziyalıları, alimləri yığır və hamı gözləyir ki, Napoleon böyük nitq söyləyəcək. Napoleon gözləniləninin əksinə, iki söz deyir: “Anlaşılmaz yazın”. Əksər ölkələrdə qanunlar hədsiz anlaşılmazdır. Belə olduğu təqdirdə, həqiqəti hardan tapaq? Həqiqət yalnız bizim xəyallarımızdadır.

*Davamı səhifə 22-də*